

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

17 sentyabr 2020-ci il
Cümə axşamı

№ 33 (3498)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında humanitar əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Albert Anatolyeviç Lixanovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Sentyabrın 11-də dövlətimizin başçısı Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, Rusiya Uşaq Fondunun sədri, yazıçı Albert Lixanova 85 illik yubileyi münasibətilə təbrik məktubu ünvanlayıb.***

***Ölkəmizin rəhbəri sentyabrın 14-də Quba rayonunun Susay–Xınalıq avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Veniamin Stepanoviç Mayorovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı sentyabrın Azərbaycan Respublikasının xüsusi mühafizə orqanlarında çoxillik səmərəli fəaliyyətinə görə Vaqif Əlibala oğlu Axundovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 15-də yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müəllimləri, tələbələri və şagirdləri təbrik edib.***

## BİR MİLLƏT, İKİ DÖVLƏT!

### Türkiyənin Qafqazda varlığı Azərbaycanı daha güclü və yenilməz edir



Sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, 15 sentyabr Bakının işğaldan azad olunmasının 102-ci ildönümü münasibətilə təbriklərini çatdırıb. Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Azərbaycan Milli Ordusu və könüllülərlə birlikdə Bakını erməni və bolşevik işğalından azad etdiyini qeyd edən dövlətimizin başçısı bu yolda canlarını qurban verən şəhidlərin dərin hörmət və ehtiramla yad edildiyini, onların əziz xatirəsinin daim xalqımızın qəlbində yaşayacağını bildirib.

Prezident İlham Əliyev bu əlamətdar hadisə ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana təbrik məktubu ünvanladığını diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, əcdadlarımızın əziz xatirəsinə göstərilən sadiqliyin nümunəsi olaraq, 15 sentyabr tarixi bir bayram kimi bu gün də qeyd olunur. Bununla əlaqədar Bakıda və Azərbaycanın müxtəlif bölgələrində tədbirlər keçirilir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zənginə görə təşəkkür edərək, Prezident İlham Əliyevə öz təbriklərini çatdırıb və bu münasibətlə dövlətimizin başçısına məktub ünvanladığını bildirib. Türkiyə Respublikasının Prezidenti Bakının işğaldan azad olunmasında Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun rolunu qeyd edib.

Telefon danışığı zamanı Bakının azad edilməsinin 100 illiyi münasibətilə iki il əvvəl keçirilmiş hərbi parad da xatırladılıb. Azərbaycan və Türkiyə əsgərlərinin iştirak etdiyi hərbi paradın hər iki ölkənin prezidentləri tərəfindən birgə izlənməsi xoş təəssüratlarla qeyd edilib. Bu gün ölkələrimiz arasında əlaqələrin daha da yüksək səviyyəyə qalxmasından məmnunluq ifadə olunub.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib.

## Peşə məktəbləri kadr çatışmazlığının aradan qaldırılmasına kömək edəcək

"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı mərkəzdə yaradılan şəraitlə tanış olub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov Prezident İlham Əliyevə Təhsil Mərkəzi barədə məlumat veriblər.

Bildirilib ki, Peşə Təhsil Mərkəzinin binası 500 tələbənin təhsil alması üçün nəzərdə tutulub. Mərkəzin binası 6 korpusdan ibarətdir. Korpuslarda 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var.

Hazırda Peşə Təhsil Mərkəzinə 2020/2021-ci tədris ili üzrə torna və frezer dəzgahlarının, proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir.

Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tədris prosesinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin mütəxəssisləri cəlb olunub.

Dövlətimizin başçısı Kimya Sənaye Parkında yaradılan şəraitlə tanış olduqdan sonra İqtisadiyyat naziri Mikayıl Cabbarova tapşırıqlarını verib.

Sumqayıt Kimya Sənaye Parkının ümumi inkişaf tendensiyası yeniliklərə münasibətilə fərqlənir. Elə nəzdində açılışı olan Peşə Təhsil Mərkəzini də bu xüsusda fərqləndirmək olar. Çünki ilk dəfədir ki, ölkədəki sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılır, bununla da bir neçə strateji hədəfə nail olunur: tələbələrə müasir infrastruktura malik mərkəzdə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri aşılanacaq. Təlim-tədris prosesində iştirak edəcək mütəxəssislər elə parkın rezidentlərinin yüksəkixtisaslı işçilərindən olacaq. Öz növbəsində tələbələr də Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində təcrübə keçməklə, iş yeri əldə etmək imkanı qazanacaqlar.

## Tikilən məktəblər gələcək uğurların təməlidir



Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak edib.

Dövlətimizin başçısı Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoyub.

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bu təhsil ocağı haqqında məlumat verildi.

Bildirilib ki, məktəbin əvvəlki binası 1936-cı ildə inşa edilmişdi. Məktəbin 460 şagird yerlik binasında 22 sinif otağı var idi. Məktəbin binası yararsız vəziyyətdə olduğundan sökülərək yerində 58 sinif otağından ibarət 960 şagird yerlik müasir bina inşa olunub və yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək.

Məktəbdə tikinti işləri 2019-cu ilin aprelində başlayıb və bu ilin avqust ayında başa çatdırılıb. Yeni binada sinif otaqları ilə yanaşı, kimya, fizika laboratoriyaları, informatika kabineti, kitabxana, bufet və idman zalı var. Yeni təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi ilə 52 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq. Sinif otaqları və laboratoriyalar müasir zəruri avadanlıqlarla təchiz olunub. Məktəbin həyətində geniş abadlıq işləri aparılıb.

Qeyd edək ki, bu təhsil ocağının şərəfli həyat yolu hər bir məktəbli üçün nümunə olan Albert Aqarunovun adını daşıması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işində mühüm rola malikdir.

## HEYDƏR ƏLİYEV FONDUNUN DAHA BİR TÖHFƏSİ

Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Murtuza Muxtarov adına park istifadəyə verilib.

Azərbaycan Prezidenti İlham Əliyev parkın açılışında iştirak edib.

Dövlətimizin başçısı məşhur neft milyonçusu və görkəmli mesenat Murtuza Muxtarovun parkdakı büstünün önünə gül dəstəsi qoyub.

Ölkəmizin rəhbərinə parkda görülən işlər və yaradılan şərait barədə məlumat verilib.



Bildirilib ki, qəsəbənin Cabir Əliyev küçəsində yerləşən keçmiş "7 Qoç" parkı 1992-ci ildə salınıb. Uzun illər parkın ərazisində heç bir təmir işləri görülməyib. Qəsəbə sakinlərinin müraciəti nəzərə alınaraq parka əslən Əmircandan olan, XIX əsrdə ilk qazma avadanlığı zavodu açan və qazma dəzgahı ixtira edən xeyriyyəçi Murtuza Muxtarovun adı verilib, burada onun büstü qoyulub.

Heydər Əliyev Fondunun dəstəyi ilə iki ay ərzində burada genişmiqyaslı abadlıq işləri aparılıb, gözəl və müasir park yaradılıb.

# “TÜRK ŞƏHİDLİYİ” ABİDƏSİ ZİYARƏT OLUNDU

Bakı şəhərinin işğaldan azad edilməsinin 102-ci ildönümü ilə əlaqədar – sentyabrın 15-də bir qrup polis əməkdaşı və Daxili Qoşunların hərbi qulluqçuları Şəhidlər Xiyabanındakı Türk Şəhidliyini ziyarət ediblər.



Onlar Bakının işğaldan azad olunması uğrunda canlarından keçən şəhid türk əsgərlərini ehtiramla yad edib, xatirələrinə ucaldılmış abidənin önünə tər çiçək dəstələri düzüblər.





# ƏBƏDİ QARDAŞLIĞIN ŞƏRƏFLİ TARİXİ

**Tarix susmur, tarix danışır. Bir əsrdən çox keçsə də 15 sentyabr Azərbaycanın tarixində unudulmaz və şərəfli səhifələrdəndir.**



1918-ci ilin mart-aprel aylarında Bakıda başlanan kütləvi qırğınlar minlərlə günahsız insanın amansızcasına öldürülməsi ilə nəticələndi. Təkcə, Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürüldü. Şamaxıda, Göyçayda, Hacıqabulda, Qubada, Xaçmazda, Salyanda, Lənkəranda, Muğanda, Dağlıq-Qarabağda və başqa bölgələrdə erməni-daşnakları tərəfindən qətlə yetirilənlərin sayı 50 mindən artıq idi. Şamaxıda 58 kənd, Qubada 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 92 kənd yerlə-yeksan edilərək, dağıdıldı.

Qardaş Türkiyə dövləti Azərbaycanda baş verən erməni-bolşevik soyqırımına laqeyd qalmadı. Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə 29 yaşına baxmayaraq, böyük döyüş təcrübəsi olan, cəsur sərkərdə kimi tanınan Nuru Paşa təyin olundu. Ona Sultan tərəfindən növbədənkənar general-mayor rütbəsi verildi. Nuru Paşa dövlətin Müdafiə naziri Ənvər Paşanın qardaşı idi.




Nuru Paşanın rəhbərlik etdiyi ordu 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək biri-birinin ardınca uğurlu döyüş əməliyyatları apararaq Azərbaycan torpaqlarını bolşevik-daşnak qüvvələrindən təmizlədi və həmin ilin 15 sentyabrında Bakını azad etdi. Türkiyəli qardaşlarımız bu döyüşdə 1130 şəhid verdi.

Bakı şəhəri azad edildikdən sonra Qafqaz İslam Ordusunun hissələri Qarabağa göndərildi. Qarabağın erməni daşnaklarından təmizlənməsi əməliyyatına başlanıldı və uğurlu döyüşlərlə qoşunlar Şuşaya daxil olaraq şəhərdə Azərbaycan bayrağını qaldırdılar.

Türkiyənin Birinci Dünya müharibəsində məğlub olması Nuru Paşanın bu işini yarımçıq qoydu. 1918-ci il oktyabrın 30-da imzalanmış Mudros müqaviləsindən sonra türkiyəli qardaşlarımız Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar. Nuru Paşa 1920-ci il aprel çevrilişindən sonra da gizli olaraq bir qrup zabitlə Dağıstandan keçərək Şuşaya gəldi və bolşeviklərə qarşı üsyan qaldırdı.

Bakının azad olunması Azərbaycan-Türkiyə qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük bir tarixi hadisədir. Sovet əsarəti illərində bu hadisənin əhəmiyyətini məqsədli şəkildə unutdurmağa calışsalar da, xalq qardaşlarının qəhrəmanlığını könlündə yaşatdı, onu heç bir zaman unutmadı.

Türkiyə bu gün də Azərbaycanın yanındadır. “Bir millət, iki dövlət” prinsipləri ilə siyasi, iqtisadi və hərbi sahələrdə möhkəmlənən əlaqələrimiz bu gün yüksək səviyyədədir. Biz əminliklə “Türkiyənin gücü bizim gücümüzdür”,-deyə bilirik. Torpaqlarımızın işğaldan azad olunması istiqamətində çox fəal, çevik siyasət aparan qardaşlarımız “Azərbaycanın sevinci bizim sevincimizdir, kədəri də bizim kədərimizdir” deməklə xalqlarımız arasındakı əsrlər boyu davam edən dostluq və qardaşlıq münasibətlərinin qan bağlarımızın təcəssümü olduğunu bütün dünyaya nümayiş etdirirlər.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Başçəkmə keçirilib

**İnsan hüquq və azadlıqları, onun qorunması, konstitusiyamızın təməl prinsipləridir. Bu prinsiplər həm də dövlət siyasətimizin prioritetidir**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin tapşırığı əsasında Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq edilmədən Göygöl rayon Polis Şöbəsinin Müvəqqəti Saxlama Yerinə başçəkmə həyata keçirilib.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Ombudsman haqqında Konstitusiya Qanunu əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması, inzibati qaydada həbs edilmiş və təqsirləndirilən şəxslərin beynəlxalq standartlara və daxili intizam qaydalarına uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olub.

Başçəkmə çərçivəsində MSY-nin kameralarına, mətbəxə, hamama, istintaq, görüş, tibb, ibadət otaqlarına və gəzinti sahəsinə baxışlar keçirilib, tibbi yardımın təşkili, qidalanma, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılıb.

Müraciətlərin, saxlanma şəraitinin və rəftar məsələlərinin araşdırılması ilə bağlı həmin müəssisədə saxlanılan bir nəfər inzibati həbs olunmuş şəxs fərdi qaydada qəbul olunub, hüquqlarının təmin olunması vəziyyəti yerində araşdırılıb.

Başçəkmənin yekununda MSY əməkdaşları ilə söhbətlər aparılıb, saxlanma şəraitinin və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi ilə bağlı milli və beynəlxalq qanunvericiliyə əsaslanan müvafiq tövsiyələr verilib.

*N.Cavadov*

**Təşəbbüslər ənənəyə çevrilir, beləcə, vətəndaş-polis münasibətləri əbədi və dönməz olur. Bağlar qırılmır, əksinə, daha da möhkəmlənir**



# Polis məktəbliləri sevindirdi

Saatlı rayon Polis Şöbəsinin əməkdaşları yeni dərs ilinin başlanması ilə əlaqədar rayon ərazisində yaşayan Qarabağ müharibəsində şəhid və əlil olmuş ailələrin övladlarına çanta və dərs ləvazimatları hədiyyə ediblər. Polisin humanist addımını yüksək qiymətləndirən valideynlər ölkəmizdə asayişin, sabitliyin keşiyində ayıq-sayıq dayanan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan, eləcə də pandemiya dönəmində insanlarımızın sağlamlığını qorumaqdan ötrü həyatlarını riskə atan həmkarlarımıza nəcib təşəbbüslərinə görə də minnətdarlıqlarını ifadə ediblər.



Asayiş keşikçiləri gələcəyimiz olan uşaqları yeni dərs ilinin başlanması münasibəti ilə təbrik edərək, yaxşı təhsil almağı, müstəqil dövlətimizə layiqli vətəndaş kimi böyüməlırini arzulayıblar.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# İnamdan və etimaddan güc alaraq...

**Düzümüzə sevinirik, yanlışımızdan isə nəticə çıxarırıq. Görünən odur ki, vətəndaşların polisə olan inamı günü-gündən artır**

Ən çətin zamanlarda xalq-polis vəhdətinin yaranması dövlətçiliyimizin sütunlarını laxlatmaq istəyənlərin qarşısına keçilməz sədd çəkib. Polisi nüfuzdan və gözdən salmaq istəyənlərin cavabını da elə polisi sevənlər verib. Bu gün də həyatımızı sınağa çəkən bir dünyəvi bəla ilə üzbəüzük. Hamılıqla mübarizə aparırıq. Mübarizənin ön sıralarında həkimlərlə yanaşı polisin olmağı insanlarda sözün əsl mənasında rahatlıq yaradıb. Qalib gəlməyin yeganə yolu qaydalara riayət etməkdir. Bu çağırışa əməl etmək üçün polisin səfərbər olması hər kəsin ürəyincə oldu. İllərin təcrübəsini və nəsillərin etibarını qazananlar pandemiya dönəmində daha fərqli bir polis obrazı ilə qarşımıza çıxdılar. Polisin gərgin əməyini fədakar xidmətini vətəndaşlarımız görməzdən gələ bilməzdilər. Cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparan, ictimai sabitliyi, təhlükəsizliyi qoruyan polisin sağlamlığımızı qorumaqdan ötrü də gözəgörünməz düşmənlə gecəli-gündüzlü mübarizə aparması, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşması rəğbət hissini artırdı. Məhz bunun nəticəsidir ki, daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı hər gün Daxili İşlər Nazirliyinə çoxsaylı minnətdarlıq məktubları daxil olur.

**Lənkəran rayon sakini Nərmin Kazımova** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yazır: “Koronavirus pandemiyasıyla mübarizədə Azərbaycan Polisinin əməyi danılmazdır. Onlar bu mübarizədə də öz həyatlarını riskə ataraq biz vətəndaşların sağlamlığını qorumaqdan ötrü gecə-gündüz fədakarcasına xidmət aparırlar. Mən bir vətəndaş olaraq bu fədakar xidmətin əyani şahidi oldum. Ailəmizin köməyə ehtiyacı olduğu bir vaxtda polislərimiz bizim güvənc yerimiz oldu. Ailəliklə koronavirusa yoluxmuşduq və təcili xəstəxanaya yerləşdirilməli idik. Amma biz xəstəxanaya gedəcəyimiz halda evimiz nəzarətsiz qalacaqdı. Evimizin təhlükəsizliyini təmin etmək üçün mən Lənkəran şəhər-rayon Polis Şöbəsinə müraciət edib kömək istədim. Müraciətimə həssaslıqla yanaşıldı. Xəstəxanada müalicə olunduğumuz müddətdə polislər bizimlə tez-tez əlaqə saxlayır, evimizin təhlükəsizlikdə olduğunu bildirir və səhhətimizlə maraqlanırdılar. Bizə olan bu xoş münasibət, təbii olaraq, polisə inam və rəğbətimizi daha da artırdı. Məhz buna görə də mən hər yerdə qürurla deyə bilərəm ki, Mənim Polisim məni qoruyur”.

“Bu ağır pandemiya dönəmində xalqına, vətəndaşına kömək edən polislərimizin fəaliyyətini yüksək dəyərləndirirəm. Kimlərsə polisdən narazılıq edirsə, onlar qanunu pozan və qaydalara riayət etməməyə cəhd göstərənlərdir. İnanırıq ki, tezliklə polis-vətəndaş həmrəyliyi sayəsində biz bu çətinliyin öhdəsindən layiqincə gələcəyik”. Bu fikirlər **paytaxt sakini Yusif Bayramovun** DİN rəhbərliyinə ünvanladığı minnətdarlıq məktubundandır.

**Goranboy rayon sakini Ülfət Vəliyev** öz təşəkkür məktubunda cinayətkarlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizəyə, ümumtəhsil məktəblərində keçirilən maarifləndirici tədbirlərə və rayon ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə görə Rayon Polis Şöbəsinin əməkdaşlarının fəaliyyətindən razılığını bildirir.

**Qusar rayon sakini Eldəniz Zamanov** üzləşdiyi problemlə əlaqədar etdiyi müraciətə həssaslıqla yanaşılaraq qısa zaman kəsiyində həll olunmasında, eləcə də ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə DİN rəhbərliyinə və Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

*M.K.*

**DİN Mətbuat Xidmətinin və Sabunçu rayon Polis İdarəsinin 42-ci Polis Bölməsinin təşəbbüsü ilə sentyabrın 14-də bu il qəbul imtahanlarında müxtəlif qruplar üzrə yüksək nəticə göstərən Nardaran qəsəbə məktəblərinin məzunları ilə görüş keçirildi.**



# ONLAR AZƏRBAYCANIN FƏXRİ OLACAQLAR

Məzunları ali məktəblərə daxil olmaları münasibətilə təbrik edən bölmə rəisi, **polis polkovnik-leytenantı Azər Məmmədov** bildirdi ki, bu gün möhtərəm Prezidentimizin siyasətinin əsas prioretetlərindən biri də təhsilin inkişafıdır. Bu məqsədlə, dövlət büdcəsindən hər il müvafiq vəsaitin ayrılması, paytaxtda olduğu kimi regionlarda da yüksək səviyyədə təhsil almaq üçün ən müasir tələblərə cavab verən məktəblərin tikilməsi, təmir edilməsi, onların yeni texnologiyalarla təchizatı daha böyük nailiyyətlər qazanmağı şərtləndirən amillərdəndir.

Görüş zamanı Nardaranda ötən illərlə müqayisədə son bir neçə ildə təhsil sahəsində qazanılan uğurlara diqqət çəkən bölmə rəisi qəbul imtahanlarında hər il yüksək bal toplayanların içində qızların üstünlük təşkil etdiyindən məmnunluğunu ifadə etdi: "Aparılan maarifləndirmə işi öz bəhrəsini verir. Statistikaya nəzər salsaq görərik ki, Nardaran məktəblərindən məzunların, eləcə də yüksək bal toplayanların sayı da ildən-ilə artır. Gələcəyini, sabahını işıqlı görmək istəyənlər, Vətənimizə, dövlətimizə layiqli vətəndaş kimi yetişmək arzusunda olanlar diqqət və qayğı ilə əhatə olunub. Uşaqların və gənclərin zərərli vərdişlərdən uzaq olmları üçün hər cür şərait yaradılıb. Polislə birgə bütün dövlət qurumları səfərbərdir ki, gələcəyimiz olan gənclər dünyanın elm, idman arenalarında Vətənimizi layiqincə təmsl etsinlər".

Bölmə rəisi bu il qəbul imtahanlarında yüksək nəticə göstərənlərin təkcə Nardaranın deyil, Azərbaycanın fəxrinə çevriləcəklərinə inandığını dedi.

Sonra yüksək nəticə göstərənlərə qiymətli hədiyyələr təqdim olundu. ***Birinci qrup üzrə 638 bal toplayan Məlikov Nurlan Şirinbala oğluna bölmə əməkdaşları tərəfindən smartfon telefon hədiyyə edildi.***

***Yeri gəlmişkən, Nardarandan seçilmiş millət vəkili Eldar Quliyevin Nurlan Məlikova hədiyyəsi noutbuk oldu.***

Göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirən, eləcə də DİN Mətbuat Xidmətinin və 42-ci Polis Bölməsi rəhbərliyinin bu nəcib təşəbbüsünün gənclərə stimul verəcəyini deyən 295 nömrəli məktəbin direktoru Dilarə Cəbrayılova gələcək illərdə də bu ənənənin davamlı olacağına ümidvar olduğunu bildirdi.

DİN Mətbuat Xidməti rəisinin müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov möhtərəm Prezidentimizin "Biz qara qızılı insan kapitalına çevirməliyik" fikrinin bu gün siyasi, istisadi və təhsildə qazanılan uğurlarda özünü göstərdiyini diqqətə çatdırdı. O, pandemiya dönəmində keçirilən bu tədbirin məzunların yaddaşında xoş bir xatirə kimi qalacağını diqqətə çatdırdı.

Daha sonra çıxış edən valideynlər polisin bu təşəbbüsünü yüksək qiymətləndirdilər və DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

***İnanırıq ki, bu ilki qəbulda yüksək nəticə göstərən Nurlan Məlikov, Raziyə Nəcəfova, Mehri Fərhadzadə, Nərgiz Səfili, Püstə Ağayeva, Şəhla Əliyeva, Məhəmməd Əliyev, Süsən Əhmədli, Tünzalə Qurbanova, Əli Həsənov, Həsən Ağayev və Sevinc Məmmədova qəbul olunduqları ali məktəbləri əla qiymətlərlə başa vuracaq, Vətənimiz adına daha böyük uğurlara imza atacaqlar.***

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# İdmançımız medal qazandı




Dünyada, eləcə də Azərbaycanda pandemiya ilə bağlı sərt karantin rejiminin yumşaldılmasından sonra açıq havada idman yarışları və oyunlarının keçirilməsini azarkeşlər sevinclə qarşılayıb. Belə turnirlərdən biri, atıcılıq üzrə Avropa kuboku senyabrın 9-dan 12-dək Danimarkanın Oxus şəhərində baş tutub. Yarışda ölkəmizi DİN Daxili Qoşunların İdman komandasının üzvü, baş leytenant Ruslan Lunov təmsil edib. Müxtəlif dövlətlərdən olan peşəkar nişançıların da iştirak etdiyi turnirdə təmsilçimiz tapançadan 25 metr quale atıcılığı üzrə rəqiblərinə şans verməyib. R.Lunov dövlət himnimizin sədaları altında üçrəngli bayrağımız göyə qaldırılarkən fəxri kürsünün zirvəsinə dəvət olunub.

*T.Əlizadə*

# POLİS ÖMRÜNƏ ŞAHİDLİK EDƏNLƏR

**Hüseyn Bağırov Bakı Dövlət Universitetinin Jurnalistika fakultəsinin məzunudur. Qəzetimizlə bir neçə vaxtdır ki, əməkdaşlıq edir. Babası uzun illər daxili işlər orqanlarında xidmət edib. Atası isə hazırda sıralarımızdadır. Qələm dostumuz polis əməkdaşlarının ailə üzvləri ilə həmsöhbət olub. Marağınıza səbəb olacağını nəzərə alıraq, yazını sizlərlə bölüşürük.**

***Daxili işlər orqanlarında xidmət etmək böyük məsuliyyət, səbr və əzmkarlıq tələb edir. Bəs onların xidməti ailə üzvləri tərəfindən necə qiymətləndirilir?***

**Abbasova Xanım:** Mən ailə həyatı quranda yoldaşım polis leytenantı idi. Hazırda o, polis kapitanıdır. Gecə-gündüz asayiş keşiyində olmaq, ədaləti bərqərar etmək şərəfli işdir. Həyatını polislə bölüşmək çətin olsa da qürurvericidir. Bəzən həyəcan siqnalı veriləndə mən də həyəcan hissi keçirirəm. Buna baxmayaraq, Vətəninə, xalqına və dövlətinə şərəflə xidmət edən asayiş keşikçisinin xanımı olmaqdan qurur duyuram. Övladlarımız da vətənpərvər böyüyürlər. Bu gün onların yurdcanlı və dövlətimizə sədaqətli olması yoldaşımın verdiyi tərbiyənin göstəricisidir.

**Atakişiyeva İradə:** Ömür-gün yoldaşım polis mayorudur. Biz onunla fəxr edirik. Polis ömrünün acılı, şirinli və bir qədər də çətin anlarına uzun illərdir ki, şahidlik edirik. Düşünürəm ki, Azərbaycan xalqı da öz polisi ilə fəxr edir. Çünki onların yuxusuz gecələrinin, çəkdikləri zəhmətin sayəsində bizlər əmin-amanlıqda yaşayırıq.

**Orucova Könül:** Həyat yoldaşım 23 ildir ki, daxili işlər orqanlarında xidmət edir. O gecələr növbədə qaldıqda, mənim səhərə kimi gözümə yuxu getmir, narahat qalıram. Amma, eyni zamanda, fəxr edirəm ki, Azərbaycan polisi xidmətdədirsə demək ki, asayiş qorunur, təhlükəsizlik təmin edilir. Azərbaycan polisi xalqına, Vətəninə və dövlətinə daim sadiqdir.

**Atakişiyeva Mahirə:** Həyat yoldaşım istefada olan polis polkovnikidir. Eyni zamanda, Qarabağ müharibəsi veteranıdır. Mən xidməti vəzifəsini uğurla icra edən, təhlükələrdən sıyrılan, hər anı ölümlə üzbəüz qalan polis əməkdaşlarına nöqsansız xidmət və uğurlar arzu edirəm.

**Məlikova Fatimə:** Hüquq-mühafizə orqanlarının əməkdaşı olmaq böyük məsuliyyət tələb edir. Yoldaşım Məmmədov Elşən polis leytenantıdır. O, da həmkarları kimi cəmiyyətimizi cinayətkarlardan qoruyur, eyni zamanda, asayiş keşiyində ayıq-sayıq diurur. Özüm də polis əməkdaşı olduğum üçün yoldaşıma hər zaman dəstək oluram. Düşünürəm ki, xalqımız bizlərə böyük inam və etibar hissi ilə yanaşır. Bu inamı və etimadı isə Azərbaycan polisi öz şərəfli xidməti ilə dünən doğruldub, bu gün doğruldur, sabah da doğruldacaq.









***M.K.***

# Cinayətkarın şəxsiyyətində bioloji və sosial amillərin nisbəti

*Əvvəli ötən saylarımızda.*



Ç.Lambrozodan əvvəl aparılan bu biokriminoloji tədqiqatlar pozitiv məktəbin inkişafına əsaslı təsir etməklə kriminoloji tədqiqatların əhəmiyyətini artırdı.

Bioloji katolizatorların insan davranışına təsiri ilə bağlı V.N.Kosarevin fikri maraq doğurmaya bilməz. O, biokriminoloji tədqiqatların uzunömürlülüyünün səbəbini izah edərək qeyd edir ki, dövlət özünün ilkin inkişaf səviyyəsində insanın cinayət törətməyə genetik bağlılığı ideyasının inkişafında maraqlı idi. Belə vəziyyətdə diqqət mövcud sistemdə olan boşluqlara yox, konkret fərdə qarşı yönəlirdi. Qeyd olunan mövqe siyasi çalar aldığından fərqli müstəvidə araşdırılmalı və əsaslı dəlillərə, elmi təhlillərə söykənməlidir.

Prinsipcə cinayətin təbiəti haqqında təlimlər tarixini sosiologiya və biologiyanın çarpazlaşması kimi təsəvvür etmək olar. Professor İlham Rəhimov haqlı olaraq qeyd edir: "Cinayətin aid olduğu sosial hadisələr yalnız bioloji cəhətdən izah edilə bilməz. Axı insan həm sosial, həm də bioloji varlıqdır. Deməli, insanı və onun davranışını sosial-bioloji baxımdan araşdırmaq lazımdır. Əks təqdirdə hər şeyi sosial mühitlə əlaqələndirmək, bioloji amili diqqətə almamaq doğru deyildir. Bu istiqamətdə insan cəmiyyətindən bütün sosial problemlərin həllini və cəzanın ləğv olunmasını gözləməməliyik. Eyni zamanda, insanlar cəmiyyətin sosial problemlərinə görə günahkar sayıla bilməzlər".

Müasir biokriminoloji tədqiqatlarda kriminal davranışın determinantları sırasına insan hüceyrəsində artıq X-xromosomu vasitəsilə yaranan 47/XXY sindromu və ya artıq Y-xromosomu vasitəsilə yaranan 47/XYY sindromu da aid edilir. Artıq X-xromosomu yüksək aqressivliklə bağlılığı, artıq Y-xromosomu isə iradi keyfiyyətlərin pozulması ilə bağlılığı göstərir.

Xromosom – DNT və zülallardan əmələ gəlmiş hüceyrəvi strukturdur. Xromosomlar gözün və saçın rəngi, boyun hündürlüyü kimi fiziki xüsusiyyətləri tənzimləyir, həmçinin temperamentə və digər psixoloji keyfiyyətlərə təsir göstərir. Normalda insan orqanizmində olan hər hüceyrə 23 cüt (46 ədəd) xromosomdan ibarətdir. Cütlükdə olan hər xromosomdan biri X-xromosomudur. Digəri isə fərdin cinsindən asılı olaraq X və Y-xromosomu ola bilər. Qadınların hər hüceyrəsində iki X - xromosomu, kişilərdə isə Y – xromosomlardan ibarət cütlüklər olur. Bəzi hallarda kişi cinsinə mənsub olan şəxslərdə müəyyən genetik anomaliyalar olur. Yəni iki Y xromosomu bir X-xromosomu ilə birləşir. Nəticədə insan hüceyrəsində 46 xromosom əvəzinə 47 xromosom yaranır. Qeyd olunan hal XYY sindromu kimi tanınır və biokriminoloqlar tərəfindən kriminal davranışın səbəblərindən biri kimi tədqiq edilir.

XYY sindromundan məhkəmə təcrübəsində ilk dəfə 1968-ci ildə Parisdə Deneil Hyüqonun məhkəməsi zamanı müdafiə tərəfindən istifadə edilmişdir. Deniel Hyüqo fahişəliklə məşğul olan qadının amansızlıqla öldürülməsinə görə mühakimə olunurdu. Məhkəmənin yekun qərarına görə Deniel Hyüqo yeddi il azadlıqdan məhrum edildi. Lakin məhkəmə tərəfindən Deniel Hyüqoda olan XYY sindromunun nəzərə alınması məsələsi hələ də aydın deyil. Bu məsələ mübahisəli olaraq qalır.

Ümumilikdə isə bioloji faktorların cinayətkarlığı şərtləndirdiyi ilə bağlı əsaslı dəlillər yoxdur. Hər hansı sosial münasibətlər fiziki keyfiyyətlərin təsiri nəticəsində davranışın xarakterinə təsir edə bilər. Bioloji amillər insanın sosial məzmununun inkişafının fizioloji əsasları kimi çıxış edir . İnsan sosial fərd olaraq özünü həm bioloji, həm də sosial səviyyədə ifadə edir.

Kriminal davranışın mürəkkəb məzmununun dərk olunmasında bioloji faktorlar tədqiq edilə bilər. Çünki bioloji faktorlar insan davranışında mühüm rol oynayır. Lakin onlar kriminal davranışın həlledici və əsas səbəbi qismində çıxış edə bilməzlər. Sosial mühit bioloji amillərə təsir edərək onu qidalandırır. Yekun davranış müxtəlif sosial, bioloji, psixoloji determinantların sintezindən törənir. Bu səbəbdən bioloji və sosial amillər müqayisədə tədqiq edilməli, onların insan davranışında rolu nəzərə alınmaqla öyrənilməlidir.

*Vüqar Mansurov,*
*polis polkovnik-leytenantı*

# Qanım torpağın olmasa, Vətən, məni bağışlama!



**Eldar Abdulla oğlu Tağızadə 1963-cü ilin sentyabr ayının 6-da Bakı şəhərində dünyaya gəlib. Nəsimi rayonundakı 164 saylı orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinə daxil olub və 1985-ci ildə fərqlənmə diplomu ilə bitirib.**

1988-ci ildə o, daxili işlər orqanlarına qəbul edilib.

1989-cu ildə Sverdlovsk şəhərində cinayət axtarışı üzrə ali ixtisasartırma kursu keçdikdən sonra baş leytenant E.Tağızadə Səbail rayon DİŞ-də əməliyyat müvəkkili vəzifəsinə təyin olunub. Sonra DİN-də daha məsul vəzifəyə irəli çəkilib.

O, tez-tez döyüş bölgələrinə ezam olunur, ermənilər tərəfindən əsir götürülən əsgərlərimizin azad edilməsində, girovların dəyişdirilməsində yaxından iştirak edib. Vəzifəsinin öhdəsindən layiqincə gəldiyini nəzərə alaraq, 1991-ci ildə ona kapitan rütbəsi verilib.

DİN-nin Terrorizmə və Banditizmə Qarşı Mübarizə İdarəsinin rəis müavini kimi 1992-ci ilin iyun ayının 3-də "Şaka" ləqəbli təhlükəli qatili və onun dəstəsini zərərsizləşdirmək üçün əməliyyata rəhbərlik edib. Onlar "Şaka"nın gizləndiyi evi müəyyən edərək mühasirəyə alıblar. Qatilə təslim olmaq təklif edilsə də o, polisləri atəşlə qarşılayıb. Eldar özünü təhlükəyə ataraq "Şaka"-nın gizləndiyi binaya daxil olub. Onun silahsız olduğunu görən qatil gülləni Eldarın sinəsinə sıxıb. Cəsur kapitan E.Tağızadə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 1992-ci il tarixli 162 saylı Fərmanı ilə Tağızadə Eldar Abdulla oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

E.Tağızadə Bakı şəhərində, Şəhidlər Xiyabanında dəfn edilib.

Təhsil aldığı 164 saylı orta məktəb və Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 12-də rayon sakini M.Camalovu qətlə yetirməkdə şübhəli bilinən qrupun digər üzvü X.Musazadə saxlanılmışdır. Onun Şorəlli kəndindəki evinin həyətindən “AKM” markalı avtomat, 1 ədəd patron darağı və 3 ədəd patron aşkar edilərək götürülmüşdür.

*****

***Biləsuvar RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bərdə şəhər sakini R.Abbasovun idarə etdiyi “Hyundai” markalı avtomobilə baxış zamanı oradan 1 kiloqram 105 qram heroin aşkar edilərək götürülmüşdür.***

***Sürücü və sərnişinləri - Bakı şəhər sakini E.Şərifov və Neftçala rayon sakini H.Zeynalov polis əməkdaşları tərəfindən saxlanılmışlar.***

*****

Sabirabad RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Poladtuğay kənd sakini, əvvəllər məhkum olunmuş R.Şəfiyevin həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 42 ədəd çətənə kolu və 2 kiloqrama yaxın marixuana aşkar edilərək götürülmüşdür.

*****

***Zaqatala RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Yuxarı Tala kənd sakini, əvvəllər məhkum olunmuş R.Quliyevin yaşadığı evə baxış zamanı oradan 5,5 kiloqram marixuana aşkar edilərək götürülmüşdür.***

***R.Quliyev üçün narkotik vasitəni hazırlamış həmkəndlisi M.Georgiye və şəhər sakini, əvvəllər məhkum olunmuş S.Davudov da müəyyən edilərək polis əməkdaşları tərəfindən saxlanılmışlar.***

*****

Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Suraxanı dəmir yolu stansiyasının ərazisində Suraxanı qəsəbə sakini, əvvəllər məhkum olunmuş R.Quliyevdən nömrəsi silinmiş “Makarov” markalı tapança, 1 ədəd patron darağı və 4 ədəd patron götürülmüşdür.

# “XƏZRİ” sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan“Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında” Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə “Koroğlu” metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

# İNCİLƏR

Düz yolu tapan bəşəriyyət məhv olmaz. Yalnız mübahisə və münaqişə onu məhv edə bilər.

**Məhəmməd peyğəmbər (ə.s.)**

Yalnız sözdə deyil, həm də işdə hikmət sahibi ol!

**Nəsirəddin Tusi**

Özünə pərəstiş edənlər həqiqəti dərk edə bilməzlər.

**Əhvədi Marağayi Rüknəddin**

Xəyanət heç zaman gizli qala bilməz, çünki o, bir qəlp puldur, tanımayanların arasında xərclənir.

**M.T.Sidqi**

Hər ümidsizlikdə bir ümid, hər qaranlıqda bir işıq yaşayır…

**Hüseyn Cavid**

«Vətən» sözü cəsarətsiz adamı da igid edir. Vətəndən əziz heç bir şey yoxdur.

**Lukain, Qədim Yunan yazıçısı**

İradəlik çox ecazkar şeydir. Onun vasitəsilə dağları yerindən oynatmaq mümkündür.

**Cek London**

Uğursuzluq - nələrisə yenidən, daha müdrik şəkildə başlamaq imkanıdır.

**Henri Ford**

Ağır iş - vaxtında etmədiyiniz yüngül işlərin cəmidir.

**Con Maksvell**

Səhər oyananda nə edəcəyin haqda düşün. Axşam yatanda isə nə etdiyin haqda.

**Pifaqor**

## Sentyabr ayının 9-dan 15-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 193 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 104 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 189, o cümlədən borclu şəxs qismində axtarışda olan 105 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 18 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 110 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

### KORONAVİRUSU MƏHV EDƏN ROBOT

Yaponiyalı tədqiqatçılar güclü ultrabənövşəyi şüalar vasitəsilə koronavirusu məhv edən robot hazırladıqlarını bəyan ediblər.

Robot Tokionun İtabaşi rayonunda yerləşən şirkətin və “Nihon” Universiteti yanında fəaliyyət göstərən xəstəxananın əməkdaşları tərəfindən hazırlanıb.

Güclü ultrabənövşəyi şüalar buraxan lampalarla təchiz edilən robot keçirilən sınaqlar zamanı müstəqil şəkildə hərəkət edərək, divarda və döşəmədə yerləşən virusları məhv edib, onların miqdarını heçə endirib.

Koronavirus pandemiyası dövründə Tokioda yeni fəaliyyətə başlayan tibbi maskalar üzrə ixtisaslaşmış mağaza gündəlik tələbat malına çevrilmiş bu məhsulun da alıcılar üçün müxtəlif növlərini təklif edir.

### ROBOT KÖŞKLƏR

İsveçrənin ən böyük pərakəndə və topdansatış şirkətlərindən biri olan “Coop” Estoniyada “Cleveron” şirkətinə məxsus “robot köşk”lərin fəaliyyətini başladan ilk satış şəbəkəsi olub.

“Cleveron 501” ərzaq köşkü müştərilərinə xüsusən pandemiya dövründə sürətli, rahat, satıcı və ya kuryerlə heç bir təmas tələb etməyən xidmət təqdim edir. Müştəri onlayn formada alış-veriş edərək özünə uyğun vaxtı seçir və sifarişini tamamladıqdan sonra xüsusi kod əldə edir. Sifarişin çatdırılması barədə bildiriş aldıqdan sonra “robot köşk”ün ekranına kodunu daxil etməklə və ya sadəcə telefon ekranından skan etməklə (heç nəyə toxunmadan) sifarişini əldə edir. Sifarişin alınması prosesi cəmi bir neçə saniyə çəkir.

“Robot köşk” rahat və yığcam dizaynı sayəsində istənilən ərazidə yerləşdirilə bilir və istənilən vaxtda müştərilərə sifarişlərini çatdıra bilir. Daxilində olan 2 temperatur zonası sayəsində meyvə-tərəvəzdən tutmuş süd və dondurulmuş qida məhsullarına kimi hər növ ərzağı təravətli şəkildə saxlayır.

Bu layihə ərzaq çatdırılması sahəsində yeni və innovativ bir addımdır, yaxın gələcəkdə bütün dünyada bu cür ərzaq köşklərinin sayının artacağı proqnozlaşdırılır.

### İXTİSASLAŞMIŞ MAĞAZA AÇILIB

“Tokio” dəmir yolu stansiyasının yeraltı ticarət mərkəzində yerləşən mağazada alıcılara 200 növdən çox tibbi maska təklif edilir. Bu maskalar arasında isti hava şəraitində nəmişliyi saxlayan və ultrabənövşəyi şüalardan qoruyanları da var. Belə maskaların təqribi qiyməti 5 dollardır.

Bununla yanaşı, qiymətli daşlarla bəzədilmiş maskalar da alıcılar tərəfindən maraqla qarşılanır. Xüsusi alıcılara təklif edilən belə maskaların qiyməti isə təqribən 900 dollar civarındadır.

Burada satıcılara müraciət edən alıcılar onların köməyi ilə zövqlərinə və üzlərinin rənginə uyğun tibbi maska seçə bilərlər.

Mağazanı Yaponiyanın pərakəndə satış üzrə tanınmış ticarət şirkətlərindən biri idarə edir.

Koronavirus pandemiyası dövründə Yaponiyanın müxtəlif sahələrdə çalışan şirkətləri, o cümlədən elektronika, kişi geyimləri və digər məhsulların istehsalı ilə məşğul olan firmaları da tibbi maska bazarına girməyə çalışır.

*Hazırladı: Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10156
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik